# COP29 Azərbaycan Əməliyyat Şirkəti Nyu York "İqlim həftəsi"ndə iştirak edir

**COP29 Azərbaycan Əməliyyat Şirkətinin nümayəndə heyəti BMT Baş Assambleyasının 79-cu sessiyasında və Nyu York "İqlim həftəsi"ndə iştirak etmək məqsədilə Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində səfərdədir. Səfər çərçivəsində sentyabrın 26-da COP29 Azərbaycan ƏŞ tərəfindən COP29-a hazırlıq istiqamətində təşkilati və əməliyyat məsələlərinə dair üzv dövlətlərin nümayəndələri üçün brifinq təşkil edilib.**




AZƏRTAC xəbər verir ki, noyabrda Bakıda keçiriləcək COP29 konfransına intensiv hazırlıq istiqamətində icra edilmiş və planlaşdırılan işlər üzrə məlumatlandırılmanın təmin edilməsi məqsədilə təşkil edilən tədbirdə BMT-nin bir sıra üzv ölkələrinin nümayəndə heyətləri iştirak ediblər.

Brifinqdə geniş təqdimatla çıxış edən COP29 Azərbaycan ƏŞ-nin İdarə Heyətinin sədri və əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova COP prosesinin təqviminə daxil edilən başlıca tədbirlər, COP29-un tematik gündəliyi, o cümlədən iqlim fəaliyyəti üzrə dünya liderlərinin sammiti barədə qısa məlumat verərək tədbir məkanı olan Bakı Stadionunda icra olunan işlərə toxunub. Əməliyyatların bütün mərhələlərində dayanıqlılıq prinsiplərinin üstün tutulmasını xüsusilə vurğulayan N.Carçalova tədbir məkanında dayanıqlılıq, əlçatanlıq və inklüzivlik tələblərinə tam riayət edildiyini bildirib, stadionda dayanıqlı əməliyyatların təmin edilməsi məqsədilə əlçatan və inklüziv mühitin yaradılması üçün atılan addımları diqqətə çatdırıb, eləcə də ƏŞ-nin əsas dayanıqlılıq hədəf və öhdəlikləri haqda bəhs edib.

Brifinqdə çıxış edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Konfrans işləri şöbəsinin direktoru Vasim Mir COP29 konfransının keçirilməsi üçün tələb olunan tədbir məkanının hazırlanması və əməliyyatların qurulması prosesini yüksək qiymətləndirib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Hökumətlərarası dəstək və kollektiv tərəqqi şöbəsinin direktoru Sesilya Kinutia Njenqa COP29 iqlim fəaliyyəti üzrə dünya liderlərinin sammitinin proqramı və milli bəyanatlar üçün ölkələr tərəfindən müraciət prosesi barədə danışıb. Daha sonra çıxış edən COP29 Azərbaycan ƏŞ-nin Koordinasiya Şurasının üzvləri Şəhla Abbəkirova və İsmayıl İsayev COP29 zamanı müsbət ziyarətçi təcrübəsi, qeydiyyat və akkreditasiya məsələləri, xüsusi COP29 vizası, media xidmətləri, nəqliyyat sxemləri kimi mövzular ətrafında iştirakçıları məlumatlandırıblar. Bununla yanaşı, COP29-un ilk günlərində baş tutacaq iqlim fəaliyyəti üzrə dünya liderlərinin sammiti ərzində keçiriləcək əsas tədbir və görüşlərin təşkilati tərəflərini şərh edən Koordinasiya şurasının üzvləri tədbir zamanı dövlət başçılarının tələb olunan səviyyədə qarşılanması üçün icra edilən işlər və planlar barədə məlumat veriblər.

Brifinq nümayəndə heyətlərini maraqlandıran suallar ətrafında müzakirələrlə davam edib.

Azərbaycan.-2024.- 29 sentyabr (№ 213).- S.12.